BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# JURNALİSTİKA

## MİLLİ MƏNLİK ŞÜURUMUZ ABBAS SƏHHƏTİN GÖZÜ İLƏ

A.BAYRAMOĞLU
*Bakı Dövlət Universiteti*

Abbas Səhhət XX əsrin əvvəllərində özü ilə ədəbi-ictimai fikrimizə yeni ab-hava, yeni ruh gətirən vətənpərvər şairlərimizdəndir. O, 1905-ci ilin fevralında zəmanənin tələb etdiyi "təzə şerin" prinsiplərini elan və şərh etməklə kifayətlənməyib, ədəbi fəaliyyətini həmin istiqamətdə quraraq həmkarlarına örnək oldu. Həssas qəlbə, zərif duyğuya malik olan şair ədəbiyyat və mədəniyyət tariximizdə maarifçi romantik şeirimizin tanınmış nümayəndəsi, sadiq dost, sözünə bütöv insan, ayıq düşüncəyə, güclü milli təəssübkeşlik hissinə malik vətəndaş, əvəzsiz tərcüməçi və müəllim kimi şərəfli bir iz qoyub. A.Səhhət ictimai-mənəvi aləmdə gedən prosesləri və onlardan irəli gələn tələbləri duyub, həyata keçirməyə çalışan yaradıcılarımız arasında daim birincilərdən olub. Təsadüfi deyil ki, ictimai-milli və mənəvi aləmdə gedən yeniləşmə prosesinin əvvəllərində olduğu kimi, yeni keyfiyyət mərhələsinə qovuşduğu dövrdə — XX əsrin ikinci onilliyinin əvvəllərində də Səhhətin şair–vətəndaş fəallığı yüksək idi.

Məlumdur ki, birinci rus inqilabından sonra güclənən milli özünüdərk prosesi milli mənlik şüurunun formalaşması mərhələsinə qədəm qoymuşdu. Milli mənlik şüuru inkişaf etdikcə xalq özünə məxsus olan soykökündən süzülüb gələn mənəvi-psixoloji və tarixi hadisələrin dərkinə daha çox meyl edirdi. Bu cür ehtiyacdan doğan tələblər keçirilən ictimai-mədəni tədbirlərlə yanaşı, bədii yaradıcılığa da təsirsiz qalmırdı. Həmin dövrdə Şamaxıda keçirilən tədbirlər və ona qabaqcıl ictimai fikrimizin aparıcı nümayəndələrindən olan A.Səhhətin fəal şair-vətəndaş münasibəti fikrimizə sübutdur. Belə ki, 1914-cü il fevralın 25-də Şamaxıda "Rus-müsəlman məktəbinin müdiri və müəllimlərinin səyi və guşişləri ilə mütəllimlərdən (şagirdlərdən — A.B.) ötrü əmələ gəlmiş xonça təntənəli şəkildə icra edilmiş", axırda uşaqlara şirniyyat paylanmışdı (6).

Bu tədbir şəhərin ictimai-mənəvi həyatında geniş əks-səda doğurmuş, camaatda milli duyğuların oyanmasına hiss olunacaq dərəcədə təsir göstərmişdi. Həmin münasibətlə A.Səhhət qələmə aldığı "Milli ideallar" (6) adlı məqaləsində xalqımızın milli unutqanlığını tənqid edərək yazırdı:

"Dünya tarixinin səhifələrini araşdırsaq, biz türklər kibi mühitin təsiratına tabe bir qövm azdır, bəlkə yoxdur desəm, xəta etməmiş olaram zənnindəyəm. Daima şərəfi — millimizi, ədəbiyyatımızı, lisanımızı, adət-qövmiyyələrimizi unutmağa hazırıq. Ədiblərimiz, şairlərimiz ədəbi

və farsi yazmağı özlərinə bir fəxr, bir şərəf sanmışlar. Hər tayfanı həmişə özlərinə tanıtdıran ədibləri, şairləri olduğu halda bizimkilər qeyrilərə uymağa, qeyriləri tərif və tövsif etməgə həvəsli olmuşlar. Üdəba və şüəramız türklügə həmişə əstehqar ilə baxmışlar. Odur ki, milli rüsum və adətimiz unudulmuş və ortadan qaldırılmışdır. O cümlədən Novruz bayramı və onun o il günlərində uşaqlar üçün bəzənilən xonça kifayətdir.

Hərçənd novruz bayramı qədim iranlıların milli bayramlarıdırsa, lakin milli bir rəng aldığından yolka bəzəməkdənsə xonça bəzəmək əladır".

Deməli, A.Səhhət millətin milli yaddaşının daim oyaq qalması və onun milli simasının müəyyənləşərək milli sabitliyə tapınması yolunda şair və ədiblərin boynuna böyük iş düşdüyünü dərk edir. Ona görə də milli təəssübkeşlikdən uzaq olub öz xalqının məziyyətlərini görə bilməyən, gözəl sifətləri həmişə başqa xalqlarda axtaran ziyalılarımızı kəskin tənqid edir. Əvəzində milli təəssüb hissi güclü olub, xalqı özünə tanıtdırmağa çalışan şəxsiyyətlərin işlərini nümunə göstərərək yazır:

"Şükr olsun ki, neçə əsrlərdən sonra bir daha azim Əlibəy Hüseynzadə cənabları çıxıb bu qəflətimizdən bizi agah etdi.

Bu qəbil bilmədigimiz şeyləri və millətimizin içində bu növ mübhəm və dağınıq adətləri xalqa tanıtdırıb müəyyən bir şəklə qoymaq böyük insanların işidir ki, böylə təşəbbüslərə ilham xudayi dinləsə gərəkdir".

A.Səhhət öz övladlarını milli ruhda tərbiyələndirmək üçün xristianların gördüyü işləri təqdir edib müsəlmanlara, azərbaycanlılara onlardan məhz bu keyfiyyətləri nümunə götürməyi tövsiyə edirdi. Ona görə Şamaxıda keçirilən Novruz şənliklərini və bu tədbirin təşkilatçılarının əməyini dərin razılıq hissi ilə qarşılayırdı. Çünki o, milli adət-ənənələrin canlanması ilə milli mənlik şüurunun yaranıb formalaşacağına, millətin milli ideallarının yüksələrək bu ideallar uğrunda mübarizəyə qalxacağına inanırdı. Bu inamdan doğan sevinclə tədbirin geniş təsvirini və buraxdığı təsiri belə təsvir edirdi:

"Xristianların tazə ili başlananda uşaqları üçün yolka bəzəmegi kimi bizdə də xonça bəzəmək vardı. Lakin onu bu halacan təntənəli və dəbdəbəli bir surətə vəz edib xalqa göstərməgə heç kəs mültəfit degildir. İştə cavan şairlərimizdən və qabil müəllimlərimizdən Şamaxı şəhərinin birinci russki-tatarski məktəbinin naziri Camobəg Cəbrayılbəgov cənabları axırıncı çaharşənbə axşamı öz məktəbində birinci dəfə olaraq uşaqlar üçün böylə bir müsamirə düzəldib xonça bəzədi. Xristianlar yolka bəzədigi kibi, Camo bəg cənabları da dürlü uşaq oyuncaqlarilə, rəngbərəng bayraqlar ilə, əlvan çiçəklər və şamlar ilə üç mərtəbə qayət zəngin, gözəl bir xonça bəzəmişdi. Məktəbin zalında rəngarəng fanuslar ilə çırağban yapıb xonçaya dair şərqilər, Novruz bayramına münasib şirin nəğmələr və uşaqların dərs kitablarında oxuduqları türkcə, rusca əzbər hekayələr, şeirlər oxutduqdan sonra milli musiqi nəğmələrimiz ilə hər kəsin qəlbində bir millət duyğusu oyandırdı. O cənabın (Cəmo Cəbrayılbəylinin — A.B.) bu təşəbbüsi — millətpərəstnaməsinə dair ərzi-təşəkkürat edib sair ürəfamızdan da milli adətlərimizi həmişə nəzərdə tutmaqların təmənna edirəm. Zira ki, bunlarsız millət yaşamaz. Bunlar bizim idealımızdır".

Şamaxıda keçirilən həmin Novruz bayramı tədbirindən A.Səhhətin bu qədər vəcdə gəlməsinin səbəbini daha dərindən duymaq üçün onun

"İqbal" qəzetində (3 mart 1914-cü il) "Bəradərim Firudinbəy Köçərli cənablarına" (7) adlı mənzum məktubuna nəzər salmaq kifayətdir.

Məzmun məktubun əvvəlində nurdan əsər olmayan bu qəmli zülmətdə yazmaq üçün ürəkaçan bir şey tapmadığını deyən şair öz vətənində qərib olduğunu söyləyir. Çünki onun rəfiqləri əldən getmişdir. Ona görə də onu duyan bir adam tapmır. Şairin "dövrəsini münaqiflər çulğalamışdır". Bu qaranlıq mühitdə qulağı həbs, gözləri dustaq ağzı yumruqla möhürlənmiş vəziyyətdə susmağa məcbur olan" Səhhət xalqın milli-mənəvi uçuruma yuvarlanaraq, milli simasızlaşmaya doğru üz tutmasını ürək ağrısı ilə təsvir edir:

Yoxluq uçrumna el yüyürdükcə,
Çox bağırdım, axırda batdı səsim.
Bu müsibətli halı gördükcə,
Ağlamaqdan kəsildi lap nəfəsim.
Keçdi mazi, bitir əzab ilə hal,
Üzümə gülməyir həm istiqbal.

Demək, A.Səhhəti narahat edib onun vətəndaş qəlbini ağrıdan ən böyük dərd millətin yoxluq uçurumuna yuvarlanmasıdır. A.Səhhət nə qədər haray çəkib ağlayaraq xalqı bu uçurumlu yoldan xilas etməyə çalışsa da, şairə etina etməkdənsə, onu sıxışdırdıqları üçün işıqlı gələcəyə ümidini itirir. Bəs, bu uçurumlu yol nədən ibarətdir?

Şerin sonrakı bəndləri həmin suala cavab verir; Şair məktəbdə işləyir. "Beş-on dəcəl, kür (nadinc, tərs — A.B.) uşağın zahirən müəllimidir. Ona görə zahirən ki, onlar milli təəssüb hissindən və dərs oxumaq meylindən uzaqdırlar. Ən dəhşətlisi isə budur ki:

Türklük, islamlıq iddiası ilə
Öz dilin bilmək istəyən yoxdur.
Əcnəbi ruhunun havası ilə,
Vətənin, millətin sevən yoxdur.
Atalar verməyir heç əhəmiyyət,
Sönmüş onlarda hissi-milliyyət.

Şairi incidən, qəlbən ağrıdan da millətin get-gedə özünə yadlaşması, yad təsirə daha çox meyl edərək təsir altına düşüb milli simasızlaşma, milli dil və ruhunu, xarakterini unutmaq prosesində olmasıdır. Buna valideynlər, atalar da əhəmiyyət vermirlər. Çünki onlarda da milli hiss sönmüşdür. Ona görə də şairin vətəndaş harayı onlara çatmır:

Burda dərs verdiyim beş-on ildir,
Deyirəm hər zaman ki: "Qeyrət edin,
Türk dili bir gözəl, şirin dildir,
Onu öyrənməyə həmiyyət edin".
Etməyir kimsəyə sözüm təsir,
Oluram gündə bir sayaq dilgir.

Bütün bu fəryad və şikayətlərin arxasında A.Səhhətin şair-vətəndaş narahatlığı, təəssübkeşliyi durur. Lakin onun təəssüf və ümidsizliyi mövcud təhlükənin aradan qaldırılması uğrunda ardıcıl və məqsədyönlü mübarizə ilə əvəz olunur. Belə ki, o, milli mənlik duyğusunun ölməyə doğru getməsinin və bunun qarşısının alınması yollarını araşdıraraq onun aradan qaldırılması üçün konkret təkliflər verməklə kifayət-

lənməyib, bu bəlaları törədən ictimai milli-mənəvi qüsurları da tənqid edir. Onu da qeyd edək ki, hələ 1906-cı ildə həmin təhlükəni — milli varlığa etinasızlıq və xaricə aludəliklə milli simasızlaşmaya doğru təhlükəli meyli M.Ə.Sabir də müşahidə edib və şair-vətəndaş narahatlığını bildirərək öz əsərlərində xalqın tərəqqisi üçün onun milli zəminin möhkəmliyinin təmininə və qorunub saxlanmasına xüsusi fikir verilməsini tələb edirdi. Onun fikrincə, tərəqqi yolunda milli özünəməxsusluq unudularaq, xaricə aludəçiliklə əldə olunan mədəniyyətlə millətin qeyrəti, irzü-namusu mühafizə olmaq əvəzinə daha da itib batar. Alovlu şair və publisist belə bir fikri əsaslandırırdı ki, biz milli özünəməxsusluq "zəminində dəxi ümumi-dünyəviyyə və əlsinəyi-əcnəbiyyəni əxz etməliyiz ki, həm dünyəvi cəhətincə və həm axirət cəhətincə tərəqqi edib, məsud və bəxtiyar olaq". Xalq şairi belə hesab edirdi ki, xarici millətlərdən o keyfiyyətlər əxz edilməlidir ki, onlar bizim milli müəyyənliyimizə rövnəq versin. Özü də əxz olunan sifətlər özümüzün milli keyfiyyətlərimiz zəminində özününküləşdirilməli, milli müəyyənliyimizə yad cizgilər qətiyyətlə rədd edilməlidir. Bu cür inkişaf edən, möhkəm və sağlam özüllər üzərində dayanan mədəniyyət əbədi və orijinaldır. Milli-mənəvi keyfiyyətləri möhkəm özüllər üzərində dayanıb, təsir altına düşməyərək daim təkmilləşən xalq ölməzdir.

Bəzi üzdəniraq ziyalılarımız isə geniş kütləni başa salmaqdansa, xarici millətlərin adət-ənənələrinə kor-koranə təqlidi, yeri düşdü-düşmədi başqa dildə danışmağı, milli dil və ədəbiyyatımızın inkişaf və təbliği qayğısına qalmayıb xarici dil və ədəbiyyatın təbliği və övladlarını mənsub olduğu xalqa yad ruhda tərbiyə etdirmələri ilə millətin milli mənlik ruhuna ciddi zərbə vururdular. Bu cür zərərli meyllərə qarşı təkbaşına mübarizə apara bilməyib ümidsizliyə qapılan A.Səhhətə Şamaxıda keçirilən həmin Novruz bayramı təntənəsi xeyli ümid verib onun mübarizə əzmini artırdı. Bu hadisədən sonra A.Səhhət, qələm dostu Sabir kimi, milli-mənəvi simasızlaşmaya olan meyllərin tənqidi və onun aradan qaldırılması yolları uğrunda mübarizəyə atıldı. Təsadüfi deyil ki, alovlu şair-publisistin "Bizdə millət uyğusu olur"(5) adlı növbəti məqaləsi məhz bu mövzuya – milli mənlik ruh və şüurunun qorunması və inkişaf etdirilməsi məsələsinə, həmin işə mane olan nöqsanların tənqidinə həsr edilmişdir. Həmin məqalədə millətin milli varlığının qorunub inkişaf etdirilməsində onun dil və ədəbiyyatının, adət-ənənəsinin oynadığı rol haqqında A.Səhhət yazır: "Lisan və ədəbiyyat hər millətin mayeyi — nicatıdır. Hər millətin yaşaması ədəbiyyatına bağlı olduğu bədhidir. Burnumuzun dibində qonşu millətlərin buna nə qədər əhəmiyyət verdikləri gün kimi aşkardır. Milli məktəblərində ana dili və milli ədəbiyyata nə qədər fəaliyyət ilə çalışırlar. Uşaqlıqdan balalarının ruhuna, qəlbinə, qanına millətçilik ruhu doldurmaqla nə qədər səy edirlər. Nə qədər təəssüb ilə lisanlarına, adablarına, adətlərinə məraət edirlər. Bunların arasında bir nəfər də olsun bunu məriət etməyirik, hər şeydə avropalılara təqlidən bütün varlığımızı unutmağa hürriyyəti-milliyyətimizi qayib etməyə malikik".

Müəllif bu məqalədə haqlı olaraq yazır ki, öz xalqının övladlarına digər xalqların, o cümlədən avropalıların bizim milli-mənəvi psixologiya və adətlərimizə tamamilə yad xüsusiyyətlərini təqliddənsə, onlarda olan milli təəssübkeşlikdən ibrət götürməyi məsləhət bilir. Çünki milli təəssübkeşlik hissindən məhrum olanlar hər hansı sahədə əvəzedilməz mü-

təxəssis olsa belə, öz xalqı üçün elə bir xeyirli iş görə bilməzlər. Əslində bu adamların tamamilə yad ruhda böyüməsində valideynlər və böyüklərimiz günahkardırlar. Belə ki, vətən övladlarının tərbiyələrinin tamamilə yad ruhda aparılması onları, özləri də hiss etmədən, get-gedə mənsub olduqları xalqa yadlaşdırır və çox vaxt xalqla həmin fərd arasındakı yadlıq səddini heç bir tədbirlə aradan qaldırmaq mümkün olmur. Beləliklə, biz hiss etmədən əslində öz vətəndaşlarımızı itirmiş oluruq. Bu cür ağrılı, faciəli itkilərlə əlaqədar məqalədə oxuyuruq:

"Məsum balalarımızı hələ göz açmamış xarici mürəbbilərə təslim edirik. Bədbəxt balalarımızı dünyanı bilməmişdən, tanımamışdan, ruhunu zəhərləyib öldürürük. Doğrudur, övladımız zahirdə ölüb qəbrə getməyir, lakin həqiqətdə ruhu ölür, o məhv olduqdan sonra yerdə nə qalır? Ruhsuz bir qəlb, cansız bir cəsəd. Biz bununla mədəniləşmirik, fəqət avropalılara bir nəfər də avropalı qazandırırıq, "biz" isə yox oluruq!".

Bütün bu milli mənəvi itkilər müqabilində sanki nalə çəkərək hövsələsi daralıb, səbri əndazədən çıxan vətənpərvər şair-publisist öz hisslərini cilovlaya bilməyərək deyir: "Canım! Bu qədər laqeydlik olarmı? Kim ki, iki kəlmə "Net" ilə "Yesi" bildi dırnaqlarını uzadıb, başına altı şayılıq (Şahılıq. Bir şah 5 qəpikdir. – A.B.) şapka keçirib daha islamiyyəti, milliyyəti tanımır".

Beləsləri nə öz dillərini bəyənir, nə də milli ədəbiyyat və adətlərini. Onlar rusca və başqa dillərdə danışmaqla özlərini mədəni, yüksək səviyyəyə malik ziyalı kimi göstərməyə can atırlar. Bu üzdəniraq "ziyalılar" milli ədəbiyyatla yanaşı, milli dildə qəzet oxumağı da öz çürük mənliklərinə türk (Azərbaycan) qəzetlərində məlumatın azlığı bəhanəsi ilə sığışdırmırlar. Səhhət üzünü belələrinə tutaraq yana-yana deyir:

"— A canım! Əlbəttə, sən oxumayanda, o oxumayanda daha qəzetçi o məlumatı əcinnələr üçün, pərilər üçün yazmayacaqdır ki... Hər mətahın tərəqqisi müştərisinə bağlıdır. Müştəri olmayanda mətah nə ilə rəvac tapar? Hər şeydə Avropa adabını təqlid edirik. Bəs millətpərvərliyi, vətənpərəstliyi neyçün onlardan görüb-götürmüyürük?! Görəlim, sair qonşu millətlərin də oxumuşları böylədirmi? Xayır, erməni, gürcü ariflərinin kəndi ədəbiyyatlarına verdikləri rövnəqlərini görəndə əql heyran olur. Kəndi mətbuatlarını nə qədər atəşin həvəslə sürmə eləyib gözlərinə çəkirlər".

A.Səhhət milli ruhdan, milli hiss və duyğudan məhrum "intelligentlərin" türk (Azərbaycan) qəzetlərinin dilinin ağırlığını bəhanə edib özlərinə bəraət qazandırmaq cəhdlərini də əsassız sayaraq, onlara "Molla Nəsrəddin" jurnalını misal çəkib bu jurnalın dilinin "kor da oxuya biləcəyi" qədər asan olduğunu söyləyir. Deməк, bəhanələr əsassızdır. Həmin nöqsanların əsl səbəbi isə "intelligentlərin" milli mənlik ruhundan hələ uşaqkən məhrum edilmələridir. Bu, əslində milli faciədir.

Darülfünun qurtarmışlarımızın da milli zəmindən məhrum olaraq, "evlərində əcnəbi mürəbbiələr saxlamağı, adab və adət meylini unutmağı insaniyyət saymalarını görən A.Səhhət onları milli mənlik şüur və duyğusundan məhrum miskin bir varlıq kimi damğalayır. "Ümumun təqdir etdiyi sevgili Sabirimizin kitabının təbi üçün bir doktor, bir inciner, bir advokat"ın bir qəpik belə ianə etmədiyini milli mənəvi etinasızlıq və puçluq kimi qəbul edən vətənpərvər şair-publisist onların milli dil və

mənəviyyata etinasızlığına heç bir insani haqlarının olmadığını bu cür nəzərə çarpdırır:

"Axır bircə deyən yox, canım! Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq. Onu sevməmək olarmı? Bəs, nə səbəbə yabançı gözlə baxırıq? Ziyalılar, ariflər böylə olduğu halda bəs, millətimiz nə ilə qayım olar; onu istiqbala götürəcək, yaşadacaq kim qalır? Milləti kiçik görən insanlar yaşamağa deyil, ölməyə məhkumdurlar.

Heç yaşarmı böylə millət, olurmu paydar,
Millətin əfradı tədricən edirkən intihar?".

Deməli, millətin yaşaması, milli-mənəvi möhkəmliyi, əbədiliyi və istiqlalı birinci növbədə onun ziyalılarının, vətəndaşlarının öz xalqına, milli mənlik şüur və mənəviyyatına münasibətinin xarakterindən asılıdır. Nümayəndələri, ziyalıları tədricən mənən ölən, daha doğrusu, xalqına yadlaşan millət ölümə və məhvə, zülmə və sitəmə, məhrumiyyətlərə məhkumdur. Millətin yaşaması, möhkəmliyi, işıqlı, azad gələcəyi və bəşər cəmiyyətində şərəfli mövqe tutması onun fərd və ziyalılarının vətənpərvərliyindən, milli təəssübkeşliyindən, milli mənlik şüur və ləyaqətinin yüksəkliyindən və s. asılıdır. Bunu dərindən dərk etdiyi üçündür ki, A.Səhhət milli varlığımızın uğurlu taleyi və işıqlı gələcəyi naminə məktəblərimizdə ana dili və ədəbiyyatın tədrisinə ayırılan saatların artırılması, ana dili müəllimlərinin peşə hazırlığı və əmək haqlarının yüksəldilməsini, milli musiqiyə, nəğməyə, xalq mahnı və rəqslərinin, milli adət-ənənələrinin öyrədilməsinə xüsusi fikir verilməsini mühüm vəzifə kimi irəli sürürdü. A.Səhhətin həmin fikirləri yuxarıda haqqında bəhs etdiyimiz əsərlərdən başqa "Dərs kitabları", "Məktəblərdə milli tərbiyə", "Məktəblərdə ana dili", "Sovqat" (qəzet adıdır - A.B.) oxucularına, "Musiqi və nəğmənin məktəblərdə əhəmiyyəti" və s. məqalələrində də irəli sürülür.

**QEYDLƏR**


1. Bayramoğlu A. Şamaxıda maarif və maarifçilik (XIX əsrin ortalarından – mart 1918-ci ilə qədərki ədəbi mühit). Bakı: Maarif,1997.
2. Bayramoğlu A. Abbas Səhhətin «Bizdə millət uyqusu olur» məqaləsi. Azərb. EA-nın Xəbərləri (əd-t,dil və inc-t ser-sı). 1998, №-3-4, səh.67-69.
3. İsayev İ.Səhhət və xalq maarifi. Bakı: Nurlan, 2001.
4. Məmmədov (Bayramoğlu) A.Milli ideallar. «Novruz» qəzeti.
5. Səhhət A. Bizdə millət uyğusu olur. "Bəsirət" qəz,. 10 may 1914.
6. Səhhət A. Milli ideallar. «İqbal» qəzeti, 4 mart 1914.
7. Səhhət A. Əsərləri.İki cilddə. İ c., Bakı: Azərnəşr, 1975.
8. Talıbzadə K.Abbas Səhhət. Bakı: Gənclik: 1986.

## НАЦИОНАЛЬНОЕ САМОСОЗНАНИЕ В ТВОРЧЕСТВЕ АББАСА САХХАТА


### А.БАЙРАМОГЛЫ


### РЕЗЮМЕ


Аббас Саххат является выдающимся поэтом – романтиком и публицистом в истории азербайджанской литературы начала XX века. На основе двух его знаменитых статей – «Milli ideallar», «Bizdə millət uyqusudur» исследуется борьба за формирование национального самосознания и его развитие в азербайджанском обществе в начале прошлого столетия. Анализируя эти статьи, автор исследует точку зрения и принципы Аббаса Саххата в решении этой проблемы. Автор указывает, что в выборе правильного пути в развитии и формировании национального самосознания, Аббас Саххат придавал огромное значение национально–нравственным ценностям, в том числе национальным праздникам и традициям, а также считал необходимым реформировать некоторые устоявшиеся в народе предрассудки и недостатки. В статье также дается сравнительный анализ взаимосвязи тем и идей публицистики и поэзии Аббаса Саххата.


## OUR NATIONAL DIGNITY CONSCIOUSNESS WITH THE MIND OF ABBAS SAHHAT


### A.BAYRAMOQLU


### SUMMARY


Abbas Sahhat had a great activities at the beginning of the $20^{th}$ century as a great romantic poet and publicist. In the article are dealt with several pages about the struggle for the development of the right formation of our national dignity consciousness at the beginning of the century on his two articles “Milli ideallar” (“National ideas”), and “İşəvü ğşddüe vqnxqıq hdqк” (“We have national sleep”). Here on the investigated articles are shown and explained the way and his principles about that problem. In the article shown that for the right direction of our national consciousness Abbas Sahhat had given high attention to our national- moral value, at the same time national holidays and he showed way of solving of our insufficiency of some things with the compare of the nations. Here were investigated the theme and idea harmonize of his publicism and poetry with the comparative form.